AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
*Təbiət və texniki elmlər seriyası, 2018, № 2*

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
*Серия естественных и технических наук, 2018, № 2*

PROCEEDINGS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
*The series of natural and technical sciences, 2018, № 2*

**ƏLİYAR İBRAHİMOV**
AMEA Naxçıvan Bölməsi
E-mail: aliyaribragimov@mail.ru

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ƏRAZİSİNDƏ YALANÇI CİRƏ – *PİMPİNELLA* L. NÖVLƏRİNİN YAYILMASI, EHTİYATI VƏ İSTİFADƏSİ

*Məqalədə Naxçıvan Muxtar Respublikasının ərazisində yayılmış qiymətli efir yağlı bitkilərdən olan Yalançı cirə – Pimpinella L. cinsinə daxil olan növlər barədə məlumat verilir. Kərəvizkimilər – Apiaceae Lindl. fəsiləsinin nümayəndələri ərazinin düzən, dağətəyi, aşağı, orta və yuxarı dağ qurşaqlarındakı bitkilik tiplərində geniş yayılmışdır. Cinsin bir neçə növü ərazi florasına tərəfimizdən əlavə olunmuşdur. Tərkibindəki bioloji fəal maddələrin, həmçinin efir yağının tələblərə cavab verməsi, onun tətbiqyönümlü bitki olduğunu əsaslandırır. Tədqiqat zamanı yalançı cirə növlərinin yayıldığı əsas sahələr müəyyən edilmiş, müasir vəziyyəti, bolluğu, rast gəlmə tezliyi, fitosenozlarda iştirakı, eksperimental yolla yaş çəkisi, efir yağının miqdarı, bioloji və ekoloji şəraiti öyrənilmişdir. Rayonlar üzrə ümumi sahəsi, məhsuldarlığı, bioloji, istismar və illik tədarük həcmi hesablanmışdır.*

**Açar sözlər:** *fəsilə, cins, növ, yalançı cirə, efir yağlı, ehtiyat, tədarük.*

Naxçıvan Muxtar Respublikasının ərazisi iqtisadiyönümlü faydalı bitki sərvətləri ilə zəngindir. Bitkilərin tərkibində olan bir çox bioloji fəal maddələr, o cümlədən efir yağları xalq təsərrüfatının müxtəlif sahələrində, tibb sənayesində, məişətdə və xalq təbabətində tətbiq olunur. Regionun florasında qiymətli efir yağlı bitkilər çoxdur. Kərəvizkimilər – *Apiaceae* Lindl. fəsiləsinə mənsub olan Yalançı cirə – *Pimpinella* L. cinsinin növləri xüsusi əhəmiyyətə malikdir.

Yalançı cirə – *Pimpinella* L. cinsinə daxil olan növlərin əsas diaqnostik əlamətləri: kasacığın dişicikləri görünmür, ləçəkləri ağdır, nadir halda çəhrayıdır, yuxarı hissəsi oyuqlu və daxilə əyilmiş dilimlidir. Meyvəsi yumurtavarı-kürəşəkillidir və ya yumurtavarıdır, ikitaylıdır azca yanlara sıxılmışdır, çılpaq və ya tükcüklüdür, qabırğa sapşəkillidir. 2-3 yağ kanalcıqlıdır, endosperm daxili tərəfdən yastıdır. Çoxillik, bəzən birillik-ikiillik ot bitkiləri olub, lələkli yaxud ikiqat-üçqat lələkli bölümlü yarpaqlıdır. Cinsin 150-dən artıq növü mülayim, subtropik və tropik zonalarda, Afrikada, Avropada və Asiyada yayılmışdır. Cinsin növləri faydalı xüsusiyyətlərinə görə qədim dövrlərdən öyrənilməyə başlanılmışdır [1, s. 84; 5, s. 160-171; 6, s. 137-165]. A.A.Qrossheym cinsin Qafqazda 15, Azərbaycanda 9 növünün olduğunu qeyd edir ki, onlardan 7 növ: *Pimpinella rhodanta* Boiss., *P. major* (L.) Huds., *P. saxifraga* L., *P. peucedanifolia* Fisch., *P. caucasica* B.Schischk., *P.*Woronowii B.Schischk., (= *P.servariaefolia nom* Fr. et Sint. *auct.), P. confusa* Woronow Naxçıvan MR ərazisi üçün göstərilir [4, s. 227-229]. "Флора Азербайджана" [10, s. 126] fundamental əsərdə isə 6 növ: *P. saxifraga* L., *P. rhodantha* Boiss., *P. squamosa, P. peucedanifolia* Fisch., *P. antriscoides* Boiss., *P. confusa* Woronow verilmişdir. A.A.Qrossheymin muxtar respublika florası üçün göstərdiyi 2 növ: *P. major* (L.) Huds. və *P. caucasica* B.Schischk. Azərbaycan florasında region üçün verilmir, *P. confusa* isə Naxçıvan MR florasına əlavə olunmuşdur [9]. Naxçıvan Muxtar

Respublikası florasının taksonomik spektrində 11 növün olduğu qeyd olunur: Adi yalançı cirə – *Pimpinella anisum* L., Keşnişi y.c. – *P. antriscoides* Boiss., Ətirli y.c. – *P. aromatica* Bieb., Qızılı y.c. – *P. aurea* DC. (*Reutera aurea* (DC.) Boiss., Oxşar y.c. – *P. peregrina* L. (*P. affinis* Ledeb.)., Acımtıl y.c. – *P. peucedanifolia* Ledeb., Qatışıq y.c. – *P. pseudotragium* DC. (*P.confusa* Woronow), Pəmbəli y.c. – *P. puberula* (DC.) Boiss., Açıqrəng y.c. – *P. rhodantha* Boiss., Daşdələn y.c. – *P. saxifraga* L., Zirehli y.c. – *P. squamosa* Karjagin [4, s. 157-158]. "Конспект флоры Кавказа" kitabında Naxçıvan MR üçün 11 növün olduğu göstərilir, ancaq nədənsə hər yerdə becərilən, bəzən yabanılaşmış Adi yalançı cirə – *Rimpinella anisum* L. verilmir. *P. squamosa* Karjagin növünün Cənubi Qafqazda ancaq Naxçıvan MR-də yayıldığı bildirilir və sual altında endemik kimi qəbul edilir. Həmçinin *P. peregrina* L. (*P. affinis* Ledeb.) növü P. *affinis* Ledeb. kimi verilmiş və *P. peregrina* L. ləğv olunmuşdur. Bu qayda da növdaxili dəyişiklik apararaq *P. pseudotragium* DC. (*P.confusa* Woronow) növündən *P. confusa* Woronow növünü ayırmaqla, *P. pseudotragium* DC. və *P. confusa* Woronow müstəqil növlər kimi verilir [7, s. 85-88]. Beləliklə, son nəticədə regionda 11 yox, 12 yalançı cirə növünün olduğu dəqiqləşdirilmişdir.

**Adi yalançı cirə – *Pimpinella anisum L.** Becərilən bitkidir. Hündürlüyü 30-50 sm-dir, düzqalxan, dairəvi, şırımlı və yuxarı hissəsi budaqlanandır. Kökü nazik olmaqla, miləbənzərdir. Kökətrafı aşağı yarpaqları uzun saplaqlı, dairəvi böyrəyəbənzər, bütöv, kəsilmiş-dişcikli və ya pərlidir. Çiçəkləri kiçik, beşbölümlü, görkəmsiz olub, gövdənin sonunda mürəkkəb çətirə toplanmışdır. Yumurta və ya armudşəkilli qoşadən meyvəsi tutqun boz-yaşıl rəngli olub, kələ-kötürdür. Əzdikdə spesifik ətirli iyə və şirintəhər dada malikdir. İyun-iyul aylarında çiçəkləyir, avqustda isə meyvələri yetişir. Yabanı halda Aralıq dənizinin ətrafında və Kiçik Asiya ölkələrində yayılmışdır. Adi cirənin meyvələri yetişməyə bir qədər qalmış (avqustda) toplanılır. Yağ, neft və sabun istehsalında istifadə edilən bu bitki əvəzedilməz sayılır. Adi yalançı cirə yaxşı nektarlı bitkidir. Meyvəsi balıq və ət sənayesində, şirniyyatların, içkilərin hazırlanmasında və çörəkbişirmədə istifadə olunur. Eyni zamanda böyrək və sidik yollarının iltihabında, qaraciyər və mədəaltı vəzinin sekretor funksiyasının stimullaşmasında, anasid qastritlərdə və meteorizmdə təyin edilir. Yağından tənəffüs yollarının katarında, traxeit və laringitdə, müxtəlif səbəblərdən yaranan öskürəklərdə istifadə edilir.

Tərkibində əsas təsiredici maddəsi 1,5-3% olan efir yağıdır. Yağın əsas tərkib hissəsi metilxavikol, az miqdarda zirə aldehidi və zirə turşusundan ibarətdir. Meyvələrində efir yağından başqa piyli yağlar və zülali maddələr vardır. Piyli yağın bərk hissəsi kakao yağını əvəz edir. Quru meyvələrinin tərkibində 1,2-3,5% (bəzən 6%) efir yağı, 16-28% piyli yağlar, 19%-ə qədər zülali maddələr, şəkər və üzvi turşular vardır. Başlıca olaraq 80-90% anetol, 10% metilxavikol, cirə aldehidi, cirə ketonu, cirə spirti, cirə turşusu, α-fellandren, α-pinen, dipenten, kamfen və asetaldehidlər vardır. Tibdə adi yalançı cirədən bir sıra preparatlar şəklində bəlğəmgətirici, həzm sisteminin fəaliyyətini yaxşılaşdırıcı və dadverici maddə kimi geniş istifadə edilir. Belə preparatlardan naşatır-cirə damcısı – *Liquar Ammonii anisatus*, sinə eliksiri – *Elaxir pectorale*, tiryəkli benzoy tinkturu – *Tinctura Opii benzoca* və digərlərini misal göstərmək olar. Bundan əlavə, sinə və işlətmə yığıntılarının, həmçinin də Trastkovun astma əleyhinə işlənən çoxkomponentli miksturasının tərkibinə daxildir. Cirədən alınan preparatlar iltihabsorucu, antiseptik, spazmolitik, tərqovucu və işlədici təsirlidir. Eyni zamanda bronx və bağırsaq vəzisinin sekresiyasını gücləndirir, saya əzələlərin spazmını aradan götürür.

**Keşnişi yalançı cirə – *Pimpinella antriscioides* Boiss.** Çoxillik mezofit bitkidir. Gövdəsi çılpaq və çubuqvarı budaqlanmışdır. Kökətrafı yarpaqları uzun saplaqlı, ikiqat



lələkvarı parçalı, son seqmenti uzunsov, kütpaylı və dişciklidir. Yuxarı yarpaqları oturaq, azsaylı neştərvarı, ləlakvarı bölümlü seqmentlidir. Çətiri 12-15 şüalı, örtük və örtükcük yarpaqları azsaylı xətti-neştərvarıdır. Çiçəkləri ağdır. Orta və subalp qurşaqların meşə və çəmənlərində yayılmışdır. İyun-iyul aylarında çiçəkləyir və meyvələri yetişir. Böyük və Kiçik Qafqazda, Naxçıvan MR-in dağlıq ərazilərində: Şərur-Sədərək rayonlarında Sustdağı, Əlăngəzdağı, Qaraquşdağı, Şahbuz rayonunun Badamlı, Şada kəndləri, Culfa rayonunun Ərəfsə, Ləkətağ, Başkənd, Boyəhməd kəndləri, Alçalıdağ, Göydağ və Ordubad payonunun Nüsnüs, Dırnıs, Unus, Şurut, Gal kəndləri ətrafında yayılmışdır. İranda və Türkmənistanda da rast gəlinir.

**Ətirli yalançı cirə – *Pimpintlla aromatica* Bieb.** İkiillik (və ya çoxillik) İberiya-Alban coğrafi tipinə mənsub kserofit bitkidir. Gövdəsi (20) 40-80 sm hündürlükdədir, qısa tükcüklü, qalxanvarı budaqlanan, aşağı yarpaqları ləlәkvarı, 3-4 cüt uzunsov-pazvarı yarpaqcıqlıdır. Yuxarı yarpaqların yarpaqcıqları oturaq, xətti-qılvarı payçıqlıdır. Ləçəkləri ağ və arxası tükcüklüdür. Orta dağlıq qurşağın daşlıq ərazilərində yayılmışdır. İyun-iyul aylarında çiçəkləyir, avqustda meyvə verir. Böyük Qafqazda, Qobustanda, Naxçıvan MR-in dağlıq ərazilərində yayılmışdır. 1986-1988-ci illərdə Mehdiyeva N.P., İbrahimov Ə.Ş. tərəfindən *Pimpinella affinis* Ledeb. və *P. aromatica* Bieb. növləri yeni aşkar edilmişdir [9, s. 86-91]. AMEA Botanika İnstitutunun biokimya laboratoriyasında yeni tapıntıların efir yağı alınıb öyrənilərək, Bakı şəhərinin bir neçə yeyinti, şirniyyat müəssisələrində sınaqdan keçirilmiş və müsbət nəticələr alınmışdır [9]. Hazırda, tətbiqyönümlü işlərin aparılmasına, yeni perspektivli bitki xammal mənbələrinin tapılmasına ciddi fikir verilir. Cinsə aid olan növlər müxtəlif istiqamətlərdə öyrənilsə də xammal kimi ehtiyatı öyrənilməmişdir. Yalançı cirə növlərinin Azərbaycanda Böyük Qafqazın Quba, Qonaqkənd, Dəvəçi rayonlarında və Qobustanda yayıldığı göstərilir. Orta dağ qurşağında – gilli-daşlı yamaclarda, kolluqlarda, ardıclıqda, otlu yamaclarda yayılmışdır. Respublika ərazisindən kənarda Dağıstanda, Şərqi Zaqafqaziyada vardır. Xızı rayonunun Qurdbulaq ərazisindən təsvir olunmuşdur.

**Qızılı yalançı cirə – *Pimpinella aurea* DC. (*Reutera aurea* (DC.) Boiss.** İran coğrafi tipinə mənsub olan çoxillik kserofit bitkidir. Gövdəsi 50-100 sm hündürlükdədir, qısa və yumşaq tükcüklü, aşağı yarpaqları ikiqat ləlәkvarı parçalı, yumurtavarı-uzunsov, dişcikli pərli, xırda son paylıdır. Çətiri 4-7 şüalıdır, ləçəkləri yumşaq tükcüklü və sarı rənglidir. Orta dağ qurşağının daşlıq ərazilərində yayılmışdır. İyun-iyul aylarında çiçəkləyir və meyvə verir. Kiçik Qafqazda, Naxçıvan MR-in düzənlik, dağlıq ərazilərində yayılmışdır. Meyvələrində ətriyyat sənayesi üçün yararlı müxtəlif aromatlı efir yağları vardır. Milax, Qazançı, Sultanbut ərazilərində, Kola, Duman, Tilləк və Batabat meşələrində yayılmışdır.

**Oxşar yalançı cirə – *Pimpinella affinis* Ledeb. (= *P. peregrina* L.).** İkiillik, çox qısa yumşaq tükcüklü bitkidir. Nazik kəndirşəkilli kökləri vardır. Gövdəsi düzdür, silindrikdir, nazik zolaqlıdır, budaqlıdır, (25) 40-90 (100) sm hündürlükdədir. Kökətrafı və aşağı gövdə yarpaqları uzun saplaq üzərindədir, ləlәklidir, görünüşcə uzunsovdur, 2-3 cüt yarpaqcıqlıdır, aşağıdakılar qısa saplaqlıdır, yuxarıdakılar oturaqdır, (0,6) 1,5-3 (4) sm uzunluqda, (0,1) 1-3 (4) sm enindədir, sonrakılar tədricən azalandır, nisbətən ensizdir, cırılmış dişciklidir. Ləçəkləri ağdır, tükcüklüdür. Meyvəsi 1-1,5 mm uzunluqdadır, yumurtavarı və ya kürəşəkilli-yumurtavarıdır. May ayında çiçəkləyir, sentyabr ayında meyvə verir. Böyük Qafqazın qərbində, Kiçik Qafqazın cənub və mərkəzi hissəsində yayılıb [9, c. 86-91]. Naxçıvan MR-də Aşağı və orta dağ qurşaqlarında, meşəliklərdə, kolluqlarda, çöllərdə, otlu yamaclarda yayılıb. Darıdağ, İlanlıdağ, Nəhəcirdağ ətrafından toplanmışdır. Kiçik Asiyada, Orta Asiyada, İranda vardır. Zaqafqaziyadan təsvir olunmuşdur.

**Acımtıl yalançı cirə – *Pimpinella peucedanifolia* Fisch. ex Ledeb.** Atropatan coğrafi tipinə mənsub olan çoxillik bozumtul, mezokserofit bitkidir. Gövdəsi 40-50, 60-80 sm hündürlükdədir, qısa tükcüklü və göyümtüldür. Yarpaqları üçbucaqşəkilli, üç dəfə ikiqat lələkvarı, sərt neştərvarı-pazşəkilli, 2-3 parçalı seqmentlidir. Çətiri (3)5-8 şüalıdır, çətircik 8-15 çiçəklidir, ləçəkləri ağdır. Subalp qurşağın qaya və çəmənlərində yayılmışdır. İyul-avqust aylarında çiçəkləyir və meyvə verir. Azərbaycanda ancaq Naxçıvan MR-də (2000-2400 m), çəmənlərdə, kolluqlar arasında, qayalıqlarda yayılmışdır. Şahbuz rayonunun Kükidağ və Qanlıgöl ətrafındakı çəmənlərdə rast gəlinir. Qarabağdan təsvir olunmuşdur.

**Qatışıq yalançı cirə – *Pimpinella pseudotragium* DC. (*P. confusa* Woronow).** Çoxillik bitkidir. Çoxbaşcıqlı kökümsovu vardır. Əsasından köhnə yarpaq saplaqlarının qalıqları ilə sıx əhatə olunmuşdur. Gövdəsi düz, nazik, silindrik, zolaqlı və budaqlıdır, (23) 30-80 sm hündürlükdədir. Kökətrafı yarpaqları çoxsaylı olub, uzun saplaqlıdır. Çətiri (6) 8-15 şüalıdır, 10-20 mm uzunluqdadır. Ləçəkləri təmiz ağdır və ya çəhrayıdır. Xaricdən yumşaq tükcüklüdür, meyvəsi yumurtavarıdır yaxud yumurtavarı-uzunsovdur, 2-3 mm uzunluqdadır. May-avqust aylarında çiçəkləyir və meyvə verir. Azərbaycanda – Qobustanda, Böyük Qafqazın şərqində, Kiçik Qafqazın mərkəzi və cənub hissəsində (Zəngilan), Naxçıvan MR-in dağlıq ərazilərində, orta dağ qurşağında, nadir halda aşağı dağ qurşağında – qayalı, daşlı yamaclarda, daşlı çöküntülərdə, dağ çəmənlərində və bağlarda rast gəlinir. Azərbaycan florasında Naxçıvan MR ərazisi üçün göstərilməyən 3 növ *P. grossheimii* Sohischk. – Qrossheym yalançı cirəsi, *P. aromatica* Bieb. – Ətirli y.c. və *P. affinis* Ledeb. – oxşar y.c. geobotaniki tədqiqatlar zamanı bu ərazidə axtarılmışdır. Nəticədə, *Pimpintlla aromatica* Bieb. və *P. affinis* növləri Ə.Ş.İbrahimov və N.P.Mehdiyeva tərəfindən 1984-cü ildə yeni aşkar edilmişdir. Onların efir yağı öyrənilmiş və yeyinti sənayesində sınaqdan keçirilərək müsbət rəy alınmışdır. Ancaq onların əsas ocaq sahələri, təbii ehtiyatı, introduksiyası və digər əsas məsələlər həll olunmamış qalmışdır.

**Pambəli yalançı cirə – *Pimpinella puberula* DC.** növü 1985 və 1986-cı illərdə tədqiqatlar zamanı tərəfimizdən aşkar olunaraq Naxçıvan MR florasına daxil edilmişdir [3, s. 157-158]. Cinsdə bəzi növdaxili dəyişikliklər edilmişdir. *P. affinis* Ledeb. – *P. peregrina* L. növünə, *P. confusa* Woronow isə *P. pseudotragium* DC. növünə birləşdirilmişdir. *P. pseudotragium* DC. və *P. puberula* (DC.) Boiss. növünün Qafqaz florasında olub-olmaması ciddi mübahisəyə səbəb olmuşdur. Belə ki, İ.İ.Karyagin *Pimpinella* L. cinsini işləyərkən, onu Qafqaz, Azərbaycan, Ermənistan və Gürcüstan floralarında verməmişdir. Hansı ki, N.Sveylov, T.Yeqorov və S.K.Çerepanov bu növü 23.VI 1956-cı ildə Ordubad rayonunun Dəstə kəndi ətrafından topladıqlarını bildirmişdilər. N.P.Mehdiyeva, Ə.Ş.İbrahimov və F.A.Əhməd-zadə tərəfindən 1983-cü ilin iyul ayında Şərur rayonunun Qıvraq kəndi ərazisində növün aşkar edilməsi, onun Azərbaycanda olmasını təsdiq etdi. 1984-cü ildə *P. puberula* (DC.) Boiss. axtarışı Dizə, Xok, Şahtaxtı, Böyükdüz, Yurdçu, Şəkərabad, Yarımca, Şıxmahmud və Cəhri kəndləri ətrafında yayılması müəyyən olunmuşdur [8, s. 19-20; 9, s. 86-91].

**Açıqrəng yalançı cirə – *Pimpinella rhodantha* Boiss.** Kiçik Asiya-Qafqaz coğrafi tipinə mənsub olan çoxillik mezofit bitkidir. Hündürlüyü 20-80 (100) sm-ə çatan, az budaqlanan, tükcüklü və ya tükcüksüz ot bitkisidir. Yarpaqları lələkvarıdır, alt yarpaqların seqmentləri dərin kəsilmiş, qanadlı, üst yarpaqların seqmentləri isə neştərvarı və ya xəttidir. Çətir şüaları 15-20-dir, çiçəkləri çəhrayıdır. Subalp və alp qurşaqlarında çəmənlərdə və kolluqlarda rast gəlinir. Meyvəsi çılpaqdır, yumurtavarıdır, 2,5 mm-ə qədər uzunluqdadır. Ləçəkləri parlaq çəhrayı-qırmızıdır, nadir halda solğun çəhrayı və ya ağ



rəngdədir. Kiçik Asiyada, İranda vardır. Naxçıvan MR-də subalp və yuxarı meşə qurşaqlarında yayılmışdır. Əsasən çəmənlərdə, meşə sahələrində, meşə talalarında rast gəlinir. İyul ayında çiçəkləyir, avqust-sentyabr aylarında meyvələri yetişir. Böyük Qafqazda, Kiçik Qafqazda, Naxçıvan MR-in dağlıq ərazilərində: Nehrəmdağ, Darıdağ, Berdikdağ ətrafında yayılmışdır. Skandinaviyada, Orta Avropada, İranda və Türkmənistanda vardır.

**Daşdələn yalançı cirə – *Pimpinella saxifraga* L.** Qərbi Palearktik coğrafi tipinə mənsub olan, çoxillik mezofit bitkidir. Gövdəsi şırımlıdır, 25-60 sm hündürlükdədir. Aşağı yarpaqları lələkşəkilli, yumurtavarı, yaxud girdə, çılpaq və ya damar boyu yumşaq tükcüklü yarpaqcıqlıdır. Yuxarı yarpaqları lələkvarı və ya ikiqat lələkvarı parçalıdır. Çətiri 6-12 şüalıdır, ləçəkləri ağdır. Subalp və alp qurşaqlarının çəmənlərində yayılmışdır. İyul-avqust aylarında çiçəkləyir və meyvə verir. Böyük Qafqazda, Kiçik Qafqazda, Naxçıvan MR-in dağlıq ərazilərində, xüsusilə Qaraquş, Gəlinqaya, Qaraqüzey, Keçəltəpə, Aracıq, Dəmirli, Soyuq və Qapıcıq dağları ərazilərində yayılmışdır. Skandinaviyada, Avropada, Balkan-Kiçik Asiyada və İranda vardır.

Daşdələn yalançı cirənin meyvə və köklərindən tibbi məqsədlə istifadə olunur. Köklərində 0,1-0,4% efir yağı və furokumarinlər (pimpinellin, izopimpinellin, berqapten) müəyyən edilmişdir. Meyvələrinin tərkibində 1,6-3%-ə qədər efir yağı vardır ki, bunun tərkibindəki aromatik birləşməli terpenoidlər ona ətirli qoxu verir. Ətirli cirəgülü meyvələrinin tərkibi 90% anetoldan ibarətdir. Daşdələn yalançı cirənin köklərindən və meyvələrindən hazırlanan sulu dəmləmə, bişirmə, tinktura və duru ekstraktı tənəffüs yollarının iltihabında yumşaldıcı, antiseptik və bəlğəmgətirici öskürək dərmanı kimi, eləcə də mədə-bağırsaq və böyrək xəstəliklərində iltihaba qarşı istifadə olunur. Bundan əlavə meyvələrinin çayı sidikqovucu və daşsalıcı vasitə kimi işlədilir. Köklərinin spirtli çıxarışı (cövhəri) su ilə durulaşdırılaraq boğaz ağrıları və angina zamanı qarqara edilir.

**Zirehli yalançı cirə – *Pimpinella squamosa* Karjag.** Atropatan coğrafi tipinə mənsub olan çoxillik kserofit bitkidir. Gövdəsi incədir, 30-60 sm hündürlükdədir, kökətrafı yarpaqları sadə lələkvarı 2-3 cüt yarpaqcıqlı, aşağı cüt saplaqlı, qalanları oturaqdır. Çətiri 5-8, çətirciyi 10-15 şüalıdır, ləçəkləri ağdır. İyun-iyul aylarında çiçəkləyir, avqust ayında meyvə verir. Azərbaycanda ancaq Naxçıvan MR-də yayılıb. Orta dağ qurşağının qayalı və daşlı yamaclarında rast gəlinir, çox nadirdir. Ermənistandan (Dərələyəz) təsvir edilib. Naxçıvan MR-də Çalxanqala (Əznəbürd) ətrafından, Nehrəm-Dərəşamdan, Arpaçay dəryaçasının ətraf qayalıqlarından, Ardıcdağdan və Lizbirt dərəsindən toplanılmışdır.

**Qatışıq yalançı cirə – *Pimpinella confusa* Woron.** Çoxillik bitkidir, (23) 30-80 sm hündürlükdədir. Çətiri (6) 8-15 şüalıdır. Tərkibindəki efir yağları digər növlərdə olduğu kimi ətriyyatda, kosmetika sənayesində, məişətdə və xalq təbabətində istifadə olunur.

Cirə növlərinin yayıldığı sahələr botaniki, geobotaniki və bitki ehtiyatları üzrə aparılan tədqiqatlarda müəyyənləşdirilmiş, məhsuldarlığının, ehtiyatının hesablanmasında A.İ.Şreterin və b. [11, s. 51] metodikasından istifadə edilmişdir (cədvəl 1).

Beləliklə, aparılan tədqiqatlar nəticəsində Naxçıvan MR ərazisində cinsin 12 növünün olduğu dəqiqləşdirilmişdir. *P. confusa* Woronow ərazi florasına yeni əlavə olunmuşdur. Yalançı cirə növləri qiymətli efir yağlı bitkilərdir. Azərbaycanın Kərəvizkimilərini tədqiq etmiş S.C.İbadullayeva [1, 2, s. 159] Naxçıvan MR ərazisində yayılmış yalançı cirə cinsinin 8 növünün efir yağının faizlə miqdarını müəyyən etmişdir: *Pimpinella saxifraga* L. 2,95 ± 0,70; *P. rhodantha* Boiss. 0,93 ± 0,050; *P. squamosa* Karjagin. 5,80 ± 0,349; *P. antriscoides* Boiss. 0,94 ± 0,050; *P. pseudotragium* DC. 4,63 ± 0,274; *P. aromatica*Bieb. 8,70 ± 0,511; *P. affinis* Ledeb. 3,26 ± 0,198; *P. peucedanifolia* Ledeb. 0,65 ± 0,043.

**Cədvəl 1**

**Yalançı cirə növlərinin təbii ehtiyatı**

| Rayonlar | Ümumi sahə, ha | 1 ha-da bitkilərin sayı | 1 bitkinin orta yaş çəkisi q. | Məhsuldarlıq, 1 ha/kq | Təbii ehtiyatı, t. | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | Bioloji ehtiyat | İstismar ehtiyatı | İllik tədarük həcmi |
| Sədərək | 710 | 420 | 465 | 195,3 | 138,66 | 83,20 | 4,16 |
| Şərur | 1270 | 650 | 561 | 364,65 | 463,11 | 277,87 | 13,89 |
| Kəngərli | 735 | 398 | 659 | 262,28 | 192,78 | 115,67 | 5,79 |
| Babək | 1340 | 783 | 640 | 501,12 | 671,50 | 402,9 | 20,15 |
| Şahbuz | 986 | 878 | 768 | 674,30 | 664,86 | 398,92 | 19,95 |
| Culfa | 1100 | 690 | 574 | 396,06 | 435,67 | 261,40 | 13,07 |
| Ordubad | 840 | 914 | 672 | 614,21 | 515,94 | 309,56 | 15,48 |
| Cəmi: | 6981 | 4731 | 4340 | 3007,9 | 3082,5 | 1849,5 | 92,48 |

Efir yağları bir çox sənaye sahələrində: kosmetik, ətriyyat, yeyinti, qənnadı, çörəkbişirmə, sabunbişirmə, spirtsiz içkilər, likör-araq, tibb və s. istifadə edilir. Yeni tətbiq sahələri isə "Fitoterapiya" və "Aromaterapiya"dır [1, s. 13-24]. İlk dəfə fransız alimi Rene-Moris Hattefos "aromaterapiya" sözünü işlətmişdir. Bu tətbiq istiqamətinə: efir yağlarından karamel-şirniyyat, sərinləşdirici içkilər, maye yuyucu vasitələr, hava təmizləyici aerozollar, diş pastaları, müxtəlif ətirli kremlər, sabunlar, mədə-bağırsaq xəstəliklərinə qarşı həblər, məlhəmlər, ətirlər və digər çoxsaylı məhsulların istehsalı aiddir.

Yalançı cirə növlərinin tətbiq sahələrinin çoxluğunu, istehsalatda efir yağlarına tələbatın artdığını nəzərə alaraq, rayonlar üzrə onların ümumi sahəsi, məhsuldarlığı müəyyən edilmiş və təbii ehtiyatı (bioloji, istismar, illik tədarük həcmi) hesablanmışdır.

**Təklif və tövsiyələr**

1. Tərkiblərində efir yağının miqdarı kifayət qədər yüksək olan: Ətirli yalançı cirə – *Pimpinella aromatica* Bieb., Qatışıq y.c. – *P. pseudotragium* DC., Daşdələn y.c. – *P. saxifraga* L., Oxşar y.c. – P. *affinis* Ledeb. növlərinin tədarükü, emalı və tətbiqi;
2. Adi y.c. – **Pimpinella anisum* L., Ətirli y.c. – *P. aromatica* Bieb. və Qatışıq y.c. – *P. pseudotragium* DC. növlərinin introduksiya yolu ilə mədəni kulturaya keçirilməsi, geniş miqyasda əkilib-becərilməsi;
3. Zirehli y.c. – *Pimpinella squamosa* Karjagin, Ətirli y.c. – *P. aromatica* Bieb., Oxşar y.c. – *P. affinis* Ledeb. və Pambəli y.c. – *P. puberula* (DC.) Boiss. növləri Cənubi Qafqazda ancaq Naxçıvan MR ərazisində yayıldığından qorunması təklif və tövsiyə olunur.

## ƏDƏBİYYAT


1. İbadullayeva S.C., Cəfərli İ.Ə. Efir yağları və aromaterapiya. Bakı: Elm, 2007, 115 s.
2. İbadullayeva S.C. Azərbaycan florasının Kərəvizkimiləri. Bakı: Elm, 2004, 321 s.
3. Talıbov T.H., İbrahimov Ə.Ş. Naxçıvan Muxtar Respublikası florasının taksonomik spektri // Naxçıvan: Əcəmi, 2008, 350 s.
4. Гроссгейм А.А. Определитель растений Кавказа. Москва, 1949, с. 747.
5. Гурвич Н.Л., Гаджиев И.Ю. Дикорастущие эфирномасличные высокогорной части Абракунисского района НАХ. АССР // Труды БИН АзФАН, 1938, т. 3, с. 137-165.
6. Дамиров И.Ф., Прилипко Л.И., Шукюров Д.З., Керимов Ю.Б. Лекарственные растения Азербайджана. Баку: Мaариф, 1982, 318 с.





7. Конспект флоры Кавказа. Санкт-Петербург: Товарищество научных изданий КМК, 2008, том III (I), с. 85-88.
8. Мехтиева Н.П., Ибрагимов А.Ш., Ахмед-заде Ф.А. О распространении *Pimpinella puberula* (DC.) Boiss. в Азербайджане // Известия Академии Наук Азербайджанской ССР. Серия биологических наук, 1985, № 2, с. 19-20.
9. Мехтиева Н.П., Ибрагимов А.Ш. *Pimpinella affinis* Ledeb. и *P. aromatica* Bieb. – новые виды для флоры Нах. АССР // Деп. ВИНИТИ, Баку, 1986, № 3402, с. 86-91.
10. Флора Азербайджана. Баку: Академия наук Азербайджанской ССР, 1955, Т. VI, 540 с.
11. Шретер А.И. и др. Методика определения запасов лекарственных растений. Москва: Медицина, 1986, 51 с.


**Алияр Ибрагимов**

## РАСПРОСТРАНЕНИЕ, ЗАПАСЫ И ИСПОЛЬЗОВАНИЕ ВИДОВ БЕДРЕНЦА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье приводятся сведения о широко распространенном и одном из ценных эфирномасличных растений *Pimpinella* L. в Нахчыванской Автономной Республике. Семейство *Apiaceae* Lindl. распространено в средней и верхней горных зонах в групповой форме. Биологически активные компоненты в его составе, особенно эфирные масла, показали, что этот вид можно применять в производстве. Нами выявлена общая площадь и количество эфирного масла. Определены продуктивность и запасы сырья (биологические, эксплуатационные, размер ежегодных запасов) и показана область их применения.

**Ключевые слова:** *семейства, род, вид, бедренец, эфирное масло, ресурс, эксплуатация.*

**Aliyar Ibrahimov**

## DISTRIBUTION, STOCKS AND USE OF THE PIMPERNEL SPECIES OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article provides information about one of the valuable ether oil plants *Pimpinella* L. widespread in the area of Nakhchivan Autonomous Republic. The repre-sents of the family of *Apiaceae* Lindl. have been spread on the plant types of the foothills, plain area of middle and upper mountain zones. The biological active compo-nents in the content, especially ether oil, show that this species can be applied in production. During the investigation have been studied the main spread area, modern condition, abundance, speed of come across, the role in phytocenosis, wet weight with experi-mental way, the amount of ether oil, biological and ecological conditions. The productivity and stocks of raw materials (biological, operational, annual stock size) are determined and the area of their application is shown.

**Keywords:** *family, genus, species, pimpintlla, etheric oily, reserve, exploitation.*

*(Akademik Tariyel Talıbov tərəfindən təqdim edilmişdir)*